# Dəyirmi masa

**Yeniyetmə və gənc qızların təhsildən yayınmaları ictimaiyyət arasında narahatlıq doğurur...**

Bu günlərdə Bərdədə Tərəqqi Sosial İnkişaf İctimai Birliyinin təşəbbüsü ilə "Yeniyetmə və gənc qızların təhsildən yayınmalarının qarşısının alınması" mövzusunda dəyirmi masa təşkil edildi.

Məlumat üçün bildirək ki, Tərəqqi birliyi əhalinin az təminatlı təbəqələrinə ehtiyaclarının ödənilməsində, təhsil şəraitinin yaxşılaşdırılmasında, əhali üçün iqtisadi imkanların yaradılmasında və s. yardım edən təşkilatdır.

Telman Dadaşov, Könül Quliyeva və Şərqiyyə Dadaşova təşkilatın işinin yüksək səviyyədə qurulması üçün bütün imkanlardan yararlanırlar.

Birliyin baş ofisi Bakı şəhərində, sahə ofisləri isə Ağdam və Bərdədə yerləşir. Bərdədə şəhər 8 saylı məktəbdə təşkil edilmiş bu masada müxtəlif idarələrdən işçilər dəvət olunmuşdur.

Çıxış edənlər - T.Dadaşov, 8 saylı məktəbin direktoru Q.Ağayev, yoxsulluğun azaldılması, əlillərə və kimsəsizlərə yardım ictimai birliyinin sədri Ə.Muradova, Mədəniyyət sarayının bədii rəhbəri G. Səfərova və başqaları öz təklif və rəylərini söylədilər. Masada iştirak edən Namaz Kərimovun çıxışı hamını heyran etdi.

Sonda yeniyetmə və gənc qızların təhsildən yayınmalarının qarşısının alınması üzrə ilkin fəaliyyət planı hazırlandı.

Dəyirmi masa Ağdam və Tərtər rayonlarında da təşkil olunacaqdır...

Gülnarə SƏFƏROVA